# BABA MANAF OĞLU QARAYEV - 90



Qarayev Baba Manaf oğlu 1931-ci il yanvar ayının 23-də Bakı şəhərində anadan olmuşdur. 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunu (İndiki ADNSU) geoloji kəşfiyyat fakultəsini neft-qaz yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı ixtisası üzrə bitirmişdir.

1954-1964-cü illərdə o, "Azərneftgeofizkəşfiyyat" trestində müxtəlif vəzifələrdə işləmişdir. 1965-2012-ci illər ərzində B.M.Qarayev həm keçmiş Sovet dönəmində, həm də Azərbaycan Respublikası öz müstəqilliyinə qovuşduqdan sonra Geofizika Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi, "Geofiziki ekspedisiya"nın rəisi, "Seysmik kəşfiyyat" laboratoriyasının müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində fəaliyyət göstərmişdir. 2012-ci ildən təqaüdə çıxana qədər isə "Neftqazelmitədqiqatlayihə" İnstitutunda çalışaraq seysmik kəşfiyyat məlumatları əsasında yeni neft-qaz perspektivli sahələrin proqnozlaşdırılması istiqamətində tədqiqatlar aparmışdır.

O, bütün əmək və elmi fəaliyyəti dövründə seysmik kəşfiyyatın metodiki məsələlərinin həlli, o cümlədən, seysmik kəşfiyyat üsullarının yeni metodikalarının işlənib - hazırlanması və təkmilləşdirilməsi ilə məşğul olmuşdur. Onun tərəfindən yüksək geoloji səmərəliliyi ilə seçilən seysmik dalğaların "Tənzimlənən istiqamətləndirilmiş qəbul"u (TİQ) və "Enli seysmik profilləmə" üsulları Azərbaycanda ilk dəfə olaraq təkmilləşdirilmiş, mürəkkəb geoloji quruluşlu neftli-qazlı rayonlarda tətbiq olunmuş və müsbət nəticələr alınmışdır. Bununla yanaşı, B.M.Qarayev fiziki-seysmik modelləşdirmə vasitəsilə müxtəlif seysmogeoloji şəraitə malik tədqiqat sahələrində antik-linal və qeyri-antiklinal neft yataqlarının geoloji kəsilişdə proqnozlaşdırılması metodikasını işləyib-hazırlamışdır. Yevlax-Ağcabədi çökəkliyinin müxtəlif sahələrində seysmik kəşfiyyat üsulları ilə dərində yatan Təbaşir çöküntülərinin daxili geoloji quruluşunun öyrənilməsi və neftlilik-qazlılıq perspektivliyinin qiymətləndirilməsində B.M.Qarayevin böyük zəhməti olmuşdur.

Hansı vəzifədə işləməsindən asılı olmayaraq, B.M.Qarayev öz vəzifə öhdəliklərinə həmişə diqqət və məsuliyyətlə yanaşmış, öhdəsinə düşən işləri vaxtında və qüsursuz yerinə yetirmişdir. Özünə qarşı tələbkarlığı və apardığı tədqiqatlara məsuliyyətlə yanaşmağı onun peşəkar bir mütəxəssis kimi püxtələşməsinə səbəb olmuşdur. O, həmişə əməksevərliyi, yüksək təşkilatçılıq qabiliyyəti və bacarığı ilə ətrafındakılara nümunə olmuşdur.

B.M.Qarayev 1970-ci ildə "Azərbaycan SSR-nin quru hissəsində TYQ seysmik metodunun tətbiqi, səmərəli metodikasının işlənib hazırlanması və geoloji effektivliyinin analizi" mövzusunda namizədlik, 1996-cı ildə "Azərbaycanın mürəkkəb quruluşlu neftli-qazlı rayonlarında seysmik kəşfiyyatın geoloji səmərəliliyinin artırılması" mövzusunda doktorluq dissertasiyalarını müvəfffəqiyyətlə müdafiə edərək müvafiq alimlik dərəcələri almışdır. B.M.Qarayev 1965-1967-ci illərdə Kuba Respublikasında "Dəniz seysmik kəşfiyyatı" dəstəsində aparıcı mühəndis, 1983-1987-ci illərdə isə Almaniya Demokratik Respublikasında "Geofizika" ekspedisiyasında seysmik məlumatların interpretasiyası üzrə baş mühəndis vəzifələrində çalışmışdır. B.M.Qarayevin bu dövrdə

əldə etdiyi geoloji nəticələrin tətbiqi kəşfiyyat və istismar quyularının düzgün yerləşdirilməsinə, bir sıra yeni qaz yataqlarının açılmasına imkan vermiş, bu respublikaların uzun müddət qazla təmin olunmasına kömək etmişdir. Ümumiyyətlə, Geofizika sahəsində nüfuzlu mütəxəssislərdən olan B.M.Qarayev seymik kəşfiyyatın yaranması və inkişafı naminə bütün bilik və təcrübəsini səfərbər edərək bu sahədə sözünü demiş alimlərdəndir.

B.M.Qarayev 100-dən artıq elmi məqalənin və yeni sahəvi və fəza seysmik kəşfiyyat texnologiyaları üzrə 7 ixtiranın müəllifi, həmçinin bir çox Beynəlxalq konfransların təşkilatçısı və iştirakçısı olmuşdur. O, bir neçə fəlsəfə üzrə elmlər doktoru hazırlamış, bir çox namizədlik və doktorluq dissertasiyaların rəsmi opponenti olmuşdur. O, yarım əsrdən çox elmi fəaliyyəti dövründə "Rəşadətli əmək" medalı, keçmiş SSRİ Geologiya Nazirliyinin "Yer təki kəşfiyyatının əlaçısı" fərqlənmə nişanı, Azərbaycan Dövlət Neft Şirkətinin, Kubada və Almaniya Demokratik Respublikasında Sovet səfirliklərinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

Geofizika və geologiya İdarəsinin rəhbərliyi və kollektivi, dostları və həmkarları adından geofizika elmində böyük xidmətlərilə tanınmış, təcrübəli və zəhmətkeş alimi şanlı yubeliyi - anadan olmasının 90 illiyi münasibətilə təbrik edir, uzun ömür, möhkəm can sağlığı, yorulmaq bilməyən elmi fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq!